AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

# “SUFİZM FƏLSƏFƏSİ”

*fənnindən*

*İPFS – B08*

*İxtisas – 050202 – Fəlsəfə*

# PROQRAM

“Fəlsəfə” ixtisası üzrə bakalavr
pilləsi üçün

Bakı Dövlət Universiteti rektorunun

05.06.2020-ci il tarixli R/66 saylı əmri
ilə nəşr hüququ verilmişdir

BAKI – 2020

WPS Office ile Düzenle

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

# "SUFİZM FƏLSƏFƏSİ"

*fənnindən*

*İPFS – B08*

*İxtisas – 050202 – Fəlsəfə*

# PROQRAM

"Fəlsəfə" ixtisası üzrə bakalavr
pilləsi üçün

BAKI – 2020



WPS Office ile Düzenle

Tərtibatçı: fəlsəfə üzrə fəlsəfə doktoru
dosent Pənahova Kəmalə Həsən qızı

Elmi redaktor: fəlsəfə elmləri doktoru
professor Hacıyev Zeynəddin Camal oğlu

Rəyçilər: fəlsəfə üzrə fəlsəfə doktoru
dosent Əlizadə Bilal Xudabaxış oğlu
fəlsəfə üzrə fəlsəfə doktoru
Kərimova Nəzakət İsfəndiyar qızı


WPS Office ile Düzenle

## İzahat vərəqəsi

Sufizm fəlsəfəsi fənnində orta əsrlər (VIII əsrdən başlayaraq) İslam bölgəsinin fəlsəfi irsində mühüm yer tutan sufiliyin meydana gəlməsi, inkişaf mərhələləri, nümayəndələri, əsas konsepsiyaları təd¬ris edilir. Sufilik İslam dini zəminində təşəkkül tapmış, İslam bölgəsinin fəlsəfəsinə, ədəbiyyatına, incəsənətinə, musiqisinə, həyat tərzinə təsir etmişdir.

Sufilik şəxsi ruhi-psixoloji təcrübə vasitəsilə, irrasional yol ilə İlahi həqiqətlərin bu dünyada seçilmişlərə bəyan olmasından, İlahi varlıqla mənəvi ünsiyyətdən bəhs edən təlimdir. Sufilik düşüncə sistemi, həyat tərzi, tərbiyə üsuludur. Təsəvvüfün məqsədi insanı pis əxlaqdan uzaqlaşdırmaq, kamil insan yetişdirməkdir. İnsanın özünü tanıması, kamilləşməsi insanlığın qiymətini bilməsinin əsas şərtidir. Allaha gedən yol insanın içində doğur, könlündə kamilləşir və qəlbində Haqq ilə qovuşur.

Nəzəriyyənin praktika ilə müşayət olunması sufizmin əsas xüsusiyyətidir. Digər tərəfdən bütün mistik cərəyanlarda olduğu kimi İslam mistisizmində də simvolik terminologiyadan istifadə olunur. Sufi təlimində Allaha itaət digər mistik təlimlərdə olduğu kimi hər hansı bir mənfəətə deyil, məhz İlahi eşqə əsaslanır. Təsəvvüf fəlsəfəsində Allahla birləşmə sufinin özünü Mütləqin ayrılmaz bir hissəsi kimi hiss etdiyi gnoseoloji akt kimi qəbul edilir. Bu mistik proseslərin son məqsədi sufinin müəyyən sirlərə hali olması, yeni bir keyfiyyət əldə edərək transformasiya etməsidir.

Sufizm həm də Orta əsrlərdə İslam dininin Ərəbistan yarımadası hüdudlarından kənarda yayılması yollarından biri olmuş, İslam mədəniyyətinin formalaşmasında özünəməxsus rol oynamışdır. Sufizm fəlsəfəsi X əsrdən başlayaraq Azərbaycan fəlsəfi və bədii fikrinə də güclü təsir göstərmişdir.

**Fənnin mənimsənilməsi məqsədləri:**

Tələbələri sufilik təliminin inkişafının mərhələləri, sufi



WPS Office ile Düzenle

təriqətləri, eyni zamanda sufilikdə varlıq və idrak problemləri, estetik fikirlər və əxlaqi prinsiplərlə tanış etməkdir. Sufilik fəlsəfəsinin mənimsənilməsi tələbələrə sufilərin əsərlərini ilk mənbələrdən oxumağa, sufi poetik irsini dərindən dərk etməyə, Orta əsrlər İslam bölgəsi fəlsəfəsini sistemli anlamağa kömək edə bilər.

**Digər fənlər strukturunda yeri:**

"Sufizm fəlsəfəsi" fənni fəlsəfə ixtisası üzrə bakalavr hazırlığında seçmə fənlər qrupuna daxildir. "Sufzm fəlsəfəsi" fənni ilə bilavasitə bağlı olan fənlər bunlardır: "Ontologiya və idrak nəzəriyyəsi", "Fəlsəfə tarixi", "Mədəniyyətşünaslıq" və s.

**Fənnin mənimsənilməsi zamanı tələbələr bilməlidir:**

- Sufizm fəlsəfəsinin meydana gəldiyi tarixi şəraiti
- Sufizm fəlsəfəsinin inkişaf mərhələlərini;
- Sufizmin idrak nəzəriyyəsini;
- Sufilərin etik görüşlərini;
- Müxtəlif məktəblərə məxsus sufilərin təlimlərini;
- Sufi təriqətlərini;
- Sufizmin Azərbaycan mədəniyyəti tarixində rolunu.

**Bacarmalıdır:**

-Tədqiqatlar zamanı bilavasitə sufilərin əsərlərinə müraciət edərək, onları təhlil edə bilməyi;

- Sufi fəlsəfəsinin dünya fəsəfəsi tarixində mövqeyini təyin etməyi;

**Səriştələrə yiyələnməlidir:**

- Sufiliyə dair mətnlər üzərində elmi-tədqiqat aparmaq


WPS Office ile Düzenle

bacarıqlarına

- Sufizm fəlsəf nümayəndələrinin görüşlərinin təhlilinə sistemli yanaşma vərdışlərinə

- Sufizm fəlsəfənin problemlərinə dair elmi diskusiyalar aparmaq qabiliyyətinə

"Sufizm fəlsəfəsi" fənni 60 saat tədris olunur. Onlardan 30 mühazirə, 30 seminar saatıdır.

## "Sufizm fəlsəfəsi" fənnindən mühazirə və məşğələ mövzuları (60 saat)

| № | Mövzunun adı | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1 | Sufizm kursunun predmeti. Sufizmin yaran¬dığı tarixi şərait. Əsas sufi konsepsiyaları və institutları | 2 saat | 2 saat |
| 2 | Sufi idrak nəzəriyyəsi. Mistik «Hallara» çatma vasitələri | 2 saat | 2 saat |
| 3 | VII-IX əsrin əvvəlində asketik və mistik biliklər.Zahidliyin müxtəlif növləri | 2 saat | 2 saat |
| 4 | Məhəbbət mistisizmi. Mistik dilin və nəzə¬riy¬yənin təşəkkülü.Xilafətin qərbində (Suriya və Misirdə) aske¬tizm və mistisizm: | 2 saat | 2 saat |
| 5 | Bağdad sufi məktəbi | 4 saat | 4 saat |
| 6 | Əl-Bistami və əl-Həllacin mis¬ti¬sizmi | 2 saat | 2 saat |
| 8 | Bəsrə və Xorasanda asketik və | 2 saat | 2 saat |



WPS Office ile Düzenle

| | | | |
|---|---|---|---|
| | mistik hərəkat | | |
| 9 | Sufi ənənəsinin sistemləşdirilməsi. Sərrac Tusi və onun «Əl-Lümə» əsəri | 2 saat | 2 saat |
| 10 | Sufi ənənəsinin sistemləşdirilməsi | 2 saat | 2 saat |
| 11 | Əbu Hamid əl-Qəzalinin sufi baxışları | 2 saat | 2 saat |
| 12 | Böyük sufi şair və filosoflari. İbn əl-Ərəbinin “vəhdət əl-vücud” təlimi. | 2 saat | 2 saat |
| 13 | Əbu Həfs Ömər Sührəverdinin təsəvvüf fəlsəfəsi. Şəms Təbrizinin sufi baxışları. Mövlana Cəlaləddin Ruminin məhəbbət sufiliyi. | 2 saat | 2 saat |
| 14 | Qasimi Ənvarın sufi dünyagörüşü. Seyid Yəhya Bakuvinin sufi baxışları. Yusif Muskuri Şirvaninin sufiliyə dair görüşləri. | 2 saat | 2 saat |
| 15 | Sufi qardaşlıqları | 2 saat | 2 saat |
| | **Cəmi: 60** | **30** | **30** |

**I Mövzu: Sufizm kursunun predmeti. Sufizmin yaran¬dığı tarixi şərait. Əsas sufi konsepsiyaları və institutları (2 saat)**

Sufizm kursunun predmeti. Onun tədrisi zamanı istifadə olunan nəzəri və metodoloji prinsiplər. Sufi sözünün etimoloji mənası. Əməvi hökmdar¬larının israfçı həyat tərzinə qarşı etiraz növləri. Asketlərin passiv etirazı.

Allaha yaxınlıq barədə fikirlərin Quran ayələri və hə¬dislərlə əsaslandırılması. Tövbə etmə, dünya həzlərindən kənar¬laşma, sadəlik, könüllü yoxsulluğu təqdir edən davranış qay¬daları.

Sufi nəzəriyyəsi və praktikasının əsas anlayışı olan təriqət (yol). Təriqət mistik yolunun keçməli olduğu psixiki, etik və mənəvi kamillik proseslərinin zəruri konseptual və etik çər¬çivəsi kimi. Mistik yolun mərhələləri: şəriət,


WPS Office ile Düzenle

təriqət, mərifət, hə¬qiqət. Bu mərhələlərin şəxsi möminlik və inamın müxtəlif dərəcələri olan islam, iman və ihsanla əlaqələndirilməsi.

Təriqət termininin bu və ya digər sufi müəllimin və ya sufi məktəbin başlanğıc verdiyi psixoloji və mənəvi hazırlıq metodunu ifadə atməsi.

Mistik yolun hal və məqamları. Zun Nun əl-Misri və Haris əi-Mühasibi tərəfindən hal və məqamların klassik anla¬yı¬şı¬nın verilməsi. Hal vəcdin-ani mənəvi nurlanmanın nəticəsi ki¬mi. An və təmkin anlayışları. Məqam mistikin özünükamilləşdirmə prose¬sində dəf etməli olduğu mərhələlər kimi. Sərrac Tusi tərəfindən verilən hal və məqamların klassik siyahısı. Sufizmdə vaxt zamanın mənəvi, ya da psixoloji aspekti kimi. Təmkin və təlvin anlayışları [15], [23], [17], [18], [2], [3], [21].

**II Mövzu: Sufi idrak nəzəriyyəsi. Mistik «hallara» çatma vasitələri (2 saat )**

Təsəvvüf dini-mistik metod kimi.

Sufi təcrübəsi ilə məşğul olan şəxsin özünü də bir obyekt olaraq dərk etməyə və Mütləq Həqiqəti tapmağa çalışması. Təsəvvüf hissin və məntiqin fövqündə duran yüksək idrak forması kimi.

Sufizmdə elmin iki növü: qazanılan və verilən. Mərifət anlayışının ilk dəfə Zun-Nun əl-Misri tərəfindən ¬şərh edilməsi. Mərifətin təkcə bilik əldə etmə deyil, həm də ir¬fan (batini məna), kəşf, ilham, intuisiya kimi anlayışları özündə cəmləşdirməsi.

Dərk prosesinin zahirdən batinə doğru istiqamətlənməsi. Batini hisslər: intuisiya, bəsirət gözü, könül gözü, vəcd, vəhy, ilham, varid (qeyb aləmindən aydın olanlar) və s. Vəcd su¬fizmdə mərifətin ən yüksək mərtəbəsi kimi. Sufizmdə kəşf, fəna və bəqa anlayışları.

Xəlvət- tənha yerdə və ya hücrədə təklikdə qalaraq


WPS Office ile Düzenle

Allah və dünya haqqında gərgin fikirlərə dalmaq. Sufyan əs-Sauri, Zun Nun əl-Misri,Əbu Bəkr əş-Şibli, Əbulgasim əl-Quşeyri və Əbu Həmid əl-Qəzalinin xəlvət haqqında fikirləri.

Əl-Sührəverdinin«Avarif-əl-məarif» əsərinin üç fəslini tən¬halıq qaydalarının təsvirinə həsr etməsi. Xəlvətin kubrəvilərin, şazililərin, qadirlilərin, xəlvətilərin ritual təcrübəsində mühüm yer tutması. Bu təcrübənin həyata keçirilməsi yolları.

Allahı xatırlamanın ritual praktikası- zikr. Zikrin həyata keçirilmə metodaları. Hizb və vird formulları.Təmiz niy¬yət. Zikrin artikulyasiyası. Zikrin üç mərhələsi.

Səma sufizmdə gizli sirlərin açılması və daha yüksək mənəvi-ruhi halların və mistik düşüncənin yeni formalarının əldə edilməsi vasitəsi kimi. Səmanı müdafiə edən əsərlərin üç qrupu. Səma rəqsləri zamanı səmanəzənlərin geyim və hərəkətlərinin simvolizə etdikləri əlamətlər [15], [23], [17], [18], [2], [3], [21].

**III Mövzu: VII-IX əsrin əvvəlində asketik və mistik bilik¬lər. Zahidliyin müxtəlif növləri (2 saat )**

«Sufi elmi»» nin ( ilm at-təsəvvüf) ikinci və üçüncü nəsil mü¬səlmanların mühitində yaranması. əl-Həsən əl-Bəsri. Onun nəsi¬hətlərinin (moizələrinin) ilkin ərəb dini ritorikasının ən yaxşı nümunələri hesab edilməsi.

**Əl-Həsən əl-Bəsrinin** Əməvi dövləti və nümayəndələri barədə fikirləri. İradə azadlığına münasibəti. Həsən əl-Bəsrinin öz müasirlərinə olan qardaş məhəbbəti (uhubba) və onun altu¬rizmi (usar).

Əl-Həsən əl-Bəsrinin davamçısı **Əbd əl-Vahid ibn Zeyd**. Professional moizəçi kimi fəaliyyəti. Əbd əl-Vahid ibn Zeydə görə «daxili» və «sirli» bilik. Əbd əl-Vahid ibn


WPS Office ile Düzenle

Zeydin «ağlayanlar» adlanan asketlər ka¬teqoriyasına aid olması.

Şatl-Ərəb boğazında Abbadan adasında ilk sufi duveyrə¬sinin əsasını qoyması. Abbadanın İraqda asketizm və zahidliyin əsas mərkəzi olması.

Suriya və Yuxarı Mesopotamiyada asketik qrupların meydana gəlməsi.

**İbrahim ibn Ədhəm** dünya nemətlərinə nifrətə əsaslanan zahidliyin tipik nümayəndəsi kimi. Asketizm və pəhrizdən əlavə onun təlimində daimi özünü müşahidəyə (muraqabə), tövbə, iztirab, Allahla "dostluğa" (hulla) və hissən duyulmaz biliyə (mərifət) də xüsusi diqqət yetirilməsi.

Mülayim asketik dindarlığın nümunəsi **Abdullah əl-Mü¬ba¬rək.** Fəal asketizmin tərəfdarı olması. "Asketizm haqqında kitab" da ("Kitab əz-zuhd") asketizmə dair fikirləri.

“Kədərli cəngavər obrazının" müsəlman analoqu, özünü məhrumetmə etalonu **Fudayl ibn İyad**. Alim-mühəddislikdən-asket-nəsihətçiyə qədər keçdiyi yol [15], [23], [17], [18], [2], [3].

**IVMövzu: Məhəbbət mistisizmi. Mistik dilin və nəzə¬riyyənin təşəkkülü. Xilafətin qərbində ( Suriya və Misirdə) asketizm və mistisizm (2 saat )**

**Rəbiyyə əl-Ədəviyyənin** məhəbbət mistisizmi. Onun həyatının ifrat asketizm və özünütəcrid nümunəsi olması. Allahı yeganə arzu, məhəbbət və pə¬rəstiş obyekti hesab etməsi. Rəbiyyə əl-Ədəviyyə Allaha təmənnasız və təmiz məhəb¬bətin təbliğatçısı kimi.

Mistik dilin və nəzəriyyənin təşəkkülü: **Şəkik əl-Bəlxi**. O "inanmayanlara" qarşı cihad aparılmasında öz ifadəsini tapan Allaha fədakar xidmətin digər bir nümayəndəsi kimi. Xilafətin şərq vilayətlərində döyüşçü-asket kimi fəaliyyəti.


WPS Office ile Düzenle

Şəkik əl-Bəlxinin təvəkkülün – Allaha mütləq ümid bağlamaq haqqında təlimin əsasını qoyması. "İbadət qaydaları" ("Ədəb əl- ibadət") traktatı. Şəkik əl-Bəlxinin "Allaha olan yolun" müxtəlif mər¬hələlərini, həmçinin bu və ya digər mər¬hələyə çatan zahid üçün xarakterik olan mənəvi təcrübə səviyyələrini konsep¬tuallaşdırmağa cəhd etməsi.

Şəkik əl-Bəl¬xinin xorasanlı şagirdi Hatim əl-Əsamm. Hatim əl-Əsammın şagirdi Əbu Turab ən-Nəxşəbinin müsəlman tərkidün¬yalı¬ğı¬nın Şərq və Qərb ənənələri arasında mənəvi körpü olması.

**Əbu Süleyman əd-Dərani** və onun əhatəsi. Allaha ümid (təvəkkül), öz taleyindən tam məmnunluq haqqında (rida) tə¬lim. Nikahsızlığı təbliğ etməsi. İnsanın öz şəxsi hissləri və onun alçaq nəf¬sinin cəhdləri ilə müba¬ri¬zəsini (mucahadat ən-nəfs) təbliğ etməsi. Ardıcıllarından olan Əhməd ibn Həvari.

Əhməd ibn Asim əl-Əntəki. "Tənhalığa çəkilmə" kitabı (Kitab əl-xəlvət). Mistik psixologiyaya və özünənəzarətə diqqət ayırması.

Misirdə asketizmin meydana gəlməsi: **Zun Nun əl-Misri.** Həyatı və fəaliyyəti. Mistik yolun "hal" və "məqamları" barədə təlimin ona aid edilməsi. Allaha doğru yolun 17 məqamından bəhs etməsi.Allaha sevgi haqqında təlim-mərifət. Zun Nun əl-Misrinin üç növ biliyi fərqləndirməsi [15], [23], [11].

**V Mövzu: Bağdad sufi məktəbi ( 4 saat )**

Mistik psixologiyanın meydana gəlməsi: **əl-Haris əl-Mü¬hasibi.** Əhməd ibn Hənbəli ilə aralarında yaranan ziddiyyətli münasibət və onun nəticələri.

Onun etik təliminin əsas ideyası olan özünə¬hesabat. "Alla¬ha aid hüquqlara riayət edilməsi kitabı"nda


WPS Office ile Düzenle

özünütəhlilin hərtərəfli şərhi. Nümayişkaranə asketizmin tənqidi.

"Vəsiyyətlər kitabı" və "Gələcək həyatın və gözlənilən dəh¬şətlərin təsəvvürü kitabı" nda qoyulan məsələlər.

Bağdad ənənələrinin yaranması. Bağdad asketik-mistik məktəbinin Bəsrə və Kufədən olan zahidlər tərəfindən for¬malaşdırılan ideya və təcrübəni varis kimi əldə etməsi. **Məruf əl-Kərhinin** həyatı. Minbərdən barış, özünüsaxlama və öz taleyindən razılıq (rida) təbliğ edən nəsihətçi.

Erkən Bağdad sufi məktəbinin nümayəndəsi isə **Bişr əl-Hafi.** Əsil möminliyin xeyirxah işlərdə və özünütəcriddə olması təzahür etməsi fikri.

**Səri əs-Səqatinin** həyatı. Səri-əs-Səqatinin təliminin Bağ¬dad zahidlik ənənəsi ilə Suriya məktəbinin elementlərinin mürək¬kəb birləşməsindən ibarət olması. Onun asketik ənənələrə töhfəsi. Allaha mə¬həbbət konspesiyası. Mistik təcrübə barədə fikirlərin gizli saxlanılmasının təqdir edilməsi.

"Ayiq" mistisizm: **Cuneyd əl-Bağdadi**. "Dərin zərif meditativ dili" müəllifi.

Cuneyd əl-Bağdadinin "İlahi tövhid haqqında elmin" yaradıcısı (ilm ət-tauhid) kimi təqdim olunması. Fəna və bəqa haqqında təlim.

**Əbu Səid Xərraz** tərəfindən "sufi elmi" dilinin inkişaf etdirilməsi. "Səmimilik haqqinda kitab" mis¬tik yola yeni qədəm qoyan gənclər üçün mənbə kimi. Əbu Səid Xərrazın "Ay¬dınlaşma kitabı"nda Allahı dərk etməyə çalışan yeddi müxtəlif kateqoriyalı insan qruplarının nəzərdən keçirilməsi. "Ayn əl-cəm" təcrübəsi..

"Aşiqanə" mistisizmin inkişafı: fikrin Allaha məhəbbətə cəmlənməsi. Xorasan zahidliyinin nümayəndəsi **Əbülhüseyn ən –Nuri.** Onun zahidlik özünüidarə qabiliyyətinin ən sərt formalarına meyliliyi,


WPS Office ile Düzenle

yüksək emo¬sio¬nal, hissi mistisizmin müdafiəçisi olması. Allaha olan məhəb¬bətini ifadə edərkən dünyəvi eşq poeziyasından istifadə etməsi. "Ürəyin məqamları" traktatında mistik həyəcanın dəqiq təsnifatının verilməsi. Allahın dərk edil¬mə¬sinin hər bir möminin üzərinə qoyulan borc hesab edilməsi.

**Sumnun ləqəbli əl-Muhibbinin** aşiqanə surətlər¬dən istifadə edərək, Allaha olan məhəbbətini ifadə etməsi. Allaha olan mistik məhəbbəti mərifətdən üstün qoyması. Allahın öz sevdikləri insanların sədaqətini sınağa çəkmək üçün onlara çətin sınaqlar göndərməsi fikrini müdafiə etməsi.

**Əbu Bəkr əş-Şiblinin** məhəbbət mistisizmi. Cüneyd əl-Bağdadi tərəfindən Əbu Bəkr əş-Şiblinin açıq moizələrinin tənqidi. Əş-Şibli ilə Mənsur əl-Həllacın dostluğu. Sufi alim¬ləri tərəfindən onun Cüneyd əl-Bağdadidən sonra Bağdad sufilərinin ikinci şeyxi adlandırılması.

**Əbu Məhəmməd əl-Cüreyrinin** Cüneyd əl-Bağdadinin vəfatından sonra Bağdad sufi məktəbinə başçılıq etməsi, əl-Həllacın edamından sonra sufizm üçün çətin dövrdə sufi hərəkatını qoruya bilməsi. Əl-Cüreurinin Bəsrə və Bağdad sufi məktəbləri arasında əlaqələndirici rolu [15], [23], [34].

**VI Mövzu: Əl-Bistami və Əl-Həllacın misti¬sizmi (2 saat )**

Əbu Yəzid əl-Bistami və Əl-Hü¬seyn İbn Mənsur əl-Həllac "sərxoş", ya ifrat sufiliyin nümayəndələri kimi."Sərxoş" sufizmin fars nümayəndəsi **Əbu Yəzid əl-Bis¬tami**. Onun ilahi reallıqla (əl-Haqqla) görüşünü təsvir edərkən keçirdiyi hisslər. Fəna və bəqa təliminə münasibəti. Cuneyd əl-Bağdadinin fəna/bəqa təlimini bir çox sünni dini nüfuzluları üçün məqbul hala salmağa cəhd etməsi.


WPS Office ile Düzenle

**Əl-Həllacın** həyatı, təlimi və faciəli ölümünün bir çox tədqiqatçılar tərəfindən müsəlman mistisizmində dönüş nöqtəsi kimi qiymətləndirilməsi. əl-Həllacın öz mistik təc¬rübələrini digər in¬sanlarla bölüşməyi zəruri hesab etməsi.

Məşhur alim Məhəmməd ibn Davud tərəfindən edamının tələb edilməsi. Əl-Həllacın sosial əda¬lətsizliyi tənqid edən ictimai çıxışla¬rının bütün müsəlman cəmiyyə¬tinin mə¬¬nə¬vi dirçəldilməsinə yönələn geniş xalq hərəkatına səbəb olması. Əl-Həllacın "dövrün gizli mənəvi qütbü" (qütb əz-zaman) adlandırılması. Əl-Həllacın "İlahiyə olan iddialarına" və hülul haqqında təlimi təbliğ etməsinə görə günahlandırılması "Kitab ət-Təvasin" əsərində " iblisin faciəli əzabkeş obrazını yaratması [15], [23], [10], [11], [28].

**VII Mövzu: Bəsrə və Xorasanda asketik və mistik hərəkat (2 saat )**

Bəsrədəki asketik-mistik məktəbin nümayəndələri: Səhl əl-Tüstəri, onun şagirdi Məhəmməd ibn Səlim, oğlu Əhməd ibn Səlim. Bəsrə sufi məktəbi təliminin Bağdad məktəbindən da¬ha mühafizəkar və mücərrəd olması. **Səhl ət –Tüstəri** sufilik tarixi üçün əhəmiyyət kəsb edən Əbu Məhəmməd əl-Cüreyri, əl-Hüseyn ibn Mənsur əl-Həllac, Əbu Talib əl-Məkki kimi şəx¬siyyətlərin müəllimi kimi. Səhl ət-Tüstərinin Allahın "möhkəm biliyin işığı" əsasında (nur əl-yəqin) bu dünyada “seyrinin” (mu¬kəşəfə) mümkünlüyünü etiraf etməsi. Səhl ət-Tüstə¬rinin fəlsə¬fəsinin əsas mövzusunun – Allahın arası¬kəsil¬məz xatırlan¬ması (zikr) olması. Zikrə mistikə "əbədi müqavilə" vəziyyətini yeni¬dən yaşamağa imkan verən vasitə kimi baxılması.

Əbu Məhəmməd əl-Cureyrinin Cuneyd əl-Bağ¬dadinin ölü¬mündən sonra Bağdad sufilərinin rəhbəri


WPS Office ile Düzenle

olması. Səlimiyyə məktəbinin başçısı **Əhməd ibn Səlim**.

İslamin qizil dövründə Bağdad sufizminin qələbəsinin səbəbləri. **Əbu Bəkr əl-Vasiti.** İlahi cəza qarşısında qorxu ilə onun mərhəmətinə ümid arasında tarazlığın saxlanılması məsələsinin irəli sürülməsi [15], [23].

**VIII Mövzu: Sufi ənənəsinin sistemləşdirilməsi. Sərrac Tusi və onun «Əl-Lümə» əsəri ( 2 saat )**

X əsrin sonunda təsəvvüf fəlsəfəsinin bütün əsas aspektlərini əhatə edən traktat, bioqrafik məlumatlar və praktik yolgös¬tə¬ricilərin meydana gəlməsi.

Əbu Nəsr Abdulla b. Əli b. Məhəmməd b. Yəhya Sərrac Tusinin həyatı. Bağdad sufi məktəbində Əbu Nəsr Sərrac Tusi tərəfindən yeni bir ənənənin başlanğıcının qoyulması..Onun «Əl-Lümə» əsəri. Sərrac Tusinin traktatında ilk dəfə sufizmin fəlsəfi əsas¬ları¬nın ontoloji, qnoseoloji, əxlaqi, estetik baxımdan açıqlan¬ması.

Sərrac Tusi varlıq problemi barədə. Hüluliyyənin (Allahın insanda əriməsi, qarışması) tənqidi. Allah əmanətinin (ima¬nın, mə¬ri¬fə¬tin) yeganə qoruyu¬cusu insanın ön plana çəkilməsi.

Sərrac Tusinin ruhla əlaqəli görüşləri. Səbəb haqqında fikirləri. «Ayn-əl-cəm» termininə mü¬na¬sibət.

Sufizmin idrak nəzəriy¬yə¬¬sinin ayrı-ayrı kateqoriyalarının sistemli şəkildə ilk dəfə S.Tusi tərəfindən təqdim edilməsi. Elmlərin üç növə ayrılması. S. Tusinin yeddi məqam və on halı  nəzərdən keçirməsi.

Dərketmə prosesində intuisiya, bəsirət gözü, könül gözü, vəcd, vəhy, ilham, varid (qeyb aləmindən aydın olanlar) və s. Tran¬sendent bilik.Şəthiyyatların şərhi.

Əxlaq məsələləri. Əxlaqın həm dini, həm də dünyəvi prin¬sipləri. «Əl-Lümə» əsərində estetik fikirlər. Səma su¬fi¬lərin mənəvi hisslərinin, gözəlliyə münasibətlərinin


WPS Office ile Düzenle

ifadəsi kimi [2], [15].

**IX Mövzu: Sufi ənənəsinin sistemləşdirilməsi ( 2 saat )**

**Əbu Talib əl-Məkkinin** sufizmə dair "Ürəklərin qidası" ("Qut əl-qulub") əsərinin müəllifi kimi məşhur olması. Səlimilərlə əlaqəsi.

Əl-Məkkinin əsərində müsəlman mərasimlərinin və ümumi qəbul edilmiş dini qaydaların tipik sufi məsələlərinin mü¬zakirəsi ilə çox gözəl uyğunlaşdırılması. Əbu Talib əl-Məkkinin sufi təlimi və həyat tərzini Peyğəmbər və onun ardıcıllarının ənənələrinin təbii davamı kimi təsvir etməsi.

.Əbu Talib əl-Məkkinin "Ürəklərin elmi" ("İlm əl-qulub") əsərinin sufi dini elitası üçün nəzərdə tutulması. Burada sufinin Peyğəmbərlərə münasibəti, tövhidin təbiəti, onun hər bir zahidin həyatına təsiri, Allah və insan arasında "əbədi müqavilə" hadisəsi, "Məhəm¬mədin işığı" kimi sufi təliminin mürəkkəb və mübahisəli məsələlərinə baxılması.

Xilafətin şərq vilayətlərində sufilik: **Əbu Bəkr əl-Kəlabazi.** Onun"Sufi təliminə giriş" ("Taarruf lı-məzhəb əhl ət-tasavvuf") adlı traktatı. Sufizmin İlahi Qanunun hərflərinə və ruhuna tam uyğun olması ideyasının müdafiə olunması. Əl-Kəlabazinin şafii/əşəri və hənəfi mövqelərini ilahi məsələlərdə eyni dərəcədə dini hesab etməsi. Sufi şeyxləri ara¬sında nəzəriyyə və təcrübənin ayrı-ayrı məsələlərində fikir ayrı¬lığının mövcud olması, sufilərin heç bir siyasi və dünyəvi ambi¬si¬yalarının olmaması və yalnız özlərinin mənəvi keyfiy¬yət¬lərini kamilləşdirməklə məşğul olmaları fıkrinin müdafiə olunması.

Xorasan ənənəsinin sistemləşdirilməsi: **Əbu Əbd ər-Rəh¬man əs-Süləmi.** "Sufi təbəqələri" əsəri. Əs-Süləminin yaradıcı irsininin üç əsas kate¬qoriyaya ayrılması. "Sufilərin tarixi" əsəri. Əs-Süləmiyə görə sufilərin Peyğəm¬bər və


WPS Office ile Düzenle

onun tərəfdarlarının sünnələrinə əsaslanmaları. Quranın şərhinə həsr edilmiş "Quranın təfsirin həqiqətləri" ("Haqaiq ət-təfsir") əsəri müsəlmanların müqəddəs mətnlərinin ezoterik şərhinin hərtərəfli təsvirini verməyə ilkin cəhdlərdən biri kimi.

Tanınmış şafii alimi **Əbu Nueymə əl-İsfahani** 689 mömin zahidin kəlamlarının və tərcümeyi-hallarının tam külliyatının müəllifi kimi.

"Övliyaların bəzədilməsi” (Hilyat əl-auliya) əsəri. Mənbə kimi müəllifin əsasən hədislərdən istifadə etməsi. Əsərdə sadəlik və təmkinliyi təqdir edilməsi, sufilər arasında müxtəlif "ifratçılıqları"n ciddi tənqid edilməsi. Əbu Nueymənin şafii ehkamçı-hüquq məktəbinin tərəfdarı olması. Əbu Nueymənin "ayıq" sufizmə meyli.

Xorasandan olan məşhur sufi müəllifi **Əbd əl-Kərim əl-Quşeyri** mistismə və ekzeqetikaya dair əsərlərin müəllifi kimi. "Sufi elmi haqqında əl-Quşeyri traktatı"("ər-Pisalə əl-Quşeyriyə, fi ilk ət-təsəvvüf") sufizmin nəzəri əsaslarının geniş şər¬hi kimi.

"Əl-Quşeyri traktatının" didaktik xarakteri. Əl-Quşeyrinin sufizmi ciddi və dəqiq müəyyən edilmiş həyat və təfəkkür tərzi kimi təqdim etməsi. Onun ilahi vahidlik və ilahi varlıqla ilahi atributlar arasındakı münasibətlər barədə fikirləri.

Sufi nəzəriyyəsinin ilkin fars təsviri olan “Gizlinin açıq¬lan¬ması" ("Kəşf əl-məhcub") əsərinin müəllifi **Əli ibn Osman əl-Cullabi əl-Hücviri.** Onun hənəfi məzhəbinə tərəfdar olması. əl-Hücvirinin sufi prinsiplərinin və ənənəvi dəyərlərinin əsas sünni ehkamları ilə uyğunluğunu göstərməyə, sufi elminin bəzi mübahisəli məsələlərini yumşaltmağa çalışması. Fənanı – ilahi məhəbbətin alovu kimi təqdim etməsi. Sufi məclisi işti¬rak¬çılarının ekstaz davranışları, sufi ayinlərində musiqidən istifadə edilməsi məsələlərinə çox ehtiyatla yanaşması. əl-Hücvirinin nikahı


WPS Office ile Düzenle

mistikin yolunda ciddi maneə hesab etməsi.

Hənbəli çalarli sufilik: **əl-Ənsari əl-Həravi.** Onun həm mis¬tik-praktik, həm də mistik-nəzəriyyəçi kimi fəaliyyəti."Yol¬çuların mənzilləri" ("Mənzil əs-sairin") əsərində mistik yolun mərhələ¬ləri. "Məqamların nöqsanları" ("İlal əl-məqamət") əsərində ənənəvi sufi "məqamları"nın çatışmazlıqlarının təhlili. Ehtiraslar və ikitərəfliliyin tövhid mərhələsində yoxa çıx¬masının qeyd olunması: mistikin tamamilə birbaşa Allahı seyr etməyə başlaması və bütün hər şeyi unutması.

Mədəni və intellektual həyatın mərkəzinin getdikcə Xilafətin şərqinə doğru yönəlməsi [15], [23], [26], [22], [30].

**X Mövzu:Əbu Hamid Əl-Qəzalinin sufi baxışları ( 2 saat )**

Hüccət əl-İslam Zeyn əd-Din Əbu Hamid Məhəmməd ibn Məhəmməd əl-Qəzalinin həyatı. Nizamiyyə mədrəsəsindəki fəaliyyəti. Sufi həyat tərzinə qədəm qoyması.

Qəzalinin real təfəkkür prosesi ilə yanaşı «zikir, fikir, şükür» ardıcıllığında həqi¬qətin dərkinə nail olmağın irrasional imkanını iddia etməsi. Qəzalinin irrasional idarkı kəşfi bilik hesab etməsi.

Maddi aləmin qanunauyğun inkişafı və labüd sonu ide¬yasını müdafiə etməsi.Varlıqları iki qismə ayırması.

Qəzalinin varlıq nəzəriyyəsinə görə aləmlərin üç mərtə¬bədən təşəkkül tapması. Biliyin iki növü. Duyğulara əsaslanan rasional idrakın irrasional idrakın birinci pilləsi hesab edilməsi.Qəza¬linin ruh haqqında fikirləri.

«Mənəvi kamillik» kon¬sepsiyasının son mərhələsinin- «Qurtuluş»un 10 şərti.

Sufilərin yolunun üç mərhələdən keçməsi. Qəzalinin əxlaq barədə fikirləri. Qəzalinin elmin iki növünü fərqləndirməsi [12], [14], [15], [11].


WPS Office ile Düzenle

**XI Mövzu:Böyük sufi şair və filosofları. İbn əl-Ərəbinin "Vəhdət əl-vücud" təli¬mi ( 2 saat )**

**Fərid əd-Din Məhəmməd Əttarın** həyatı. Əsərlərinin üç qrupa bölünməsi.

Ən çox nəzərdən keçirdiyi sufi konsepsiyaları: fəna, bütün varlığın bir¬liyi və vəhdəti, insanın öz-özünü dərk etməsinin ilahi və dünyəvi sirlərə açar olması. Mərifətə insana məxsus ali idrak forması kimi baxılması.

"Quşların dili" ( "Məntiq ət-tayr") poemasının süjeti. Fənanın mahiyyətinin izah edilməsi."Mistik məqsəd haqqında kitab"da (Müsibətnamə) Allahı tapmağa cəhd edən mistik yolçunun məruz qaldığı çətinliklərin, mistik yolun məqsədinin təsviri.

Mənəvi əzab və tərəddüdlərdən xilas olmaq üçün mistik yolun zəruriliyi "Mənəvi nəsihət kitabı"("Pənd.namə") və "Dəvə haqqında kitab" ("Üşturnamə"), "Övliyaların siyahısı" ("Təzkirat əl-auliya") əsərlərndə təsəvvüf təliminin əsas prinsiplərinin açılması..

**Nurəddin Əbd ər-Rəhman Caminin** həyatı və təhsili. Tey¬murilər sülaləsindən olan sultan Hüseyn Bayqarın himayəsi altında Heratdakı fəaliyyəti.

Süfilərin tərcümeyi-hallarından ibarət məşhur və tam toplu olan "Yaxınlığın əsməsi" ("Nəfahat əl-uns") əsəri. "Fəxrli dürr" ("Əd-durra əl-fəxira") əsərində ilahiyatçı-mütəkəllimlərin, sufi¬lə¬rin, filosofların müsəl¬man inamının on bir əsas məsələ¬sinə dair fikirlərinin təhlili: İlahi varlığın təbiəti, İlahi bilik, İlahi atributlar, Kai¬natın zamanca və məkanca yaranması.

"Varlıq haqqında traktatında" ("Risalə fi-l-vicud") reallığın dərk edil¬mə¬sinin yalnız mistik seyretmə və ya "örtüyün intuitiv götürül¬məsi" (kəşf) nəticəsində mümkünlüyü.

**Mühyiddin ibn əl-Ərəbinin** həyatı və təhsili.



WPS Office ile Düzenle

“Müd¬rikliyin qiymətli daşları” (“Fusus əl-hikam”), “Məkkə vəhyləri”( “Əl-Fütuhət əl-Məkkiyyə”) əsərləri.

Anadoludakı fəaliyyəti. Anadolu sultanı Keykavusun mə¬nəvi müəllimi olması, zahidlik nəsihətlərindən və praktik məs¬ləhətlərdən ibarət məşhur “Nəsihətnaməsini” ona ünvanlaması.

“Fusus əl-hikam”-da peyğənbərliyin təbiəti, dini inam, bu dünyada insanın yeri haqqında fikirlər. Allahla kainatın birliyi haqqinda metafizik düşüncələrin ezoterik poeziya və Quran sujetlərinin qeyri-adi alleqorik şərhləri ilə çarpazlaşması Əl-Ərəbinin əsərlərində hüququn, müqayisəli fəlsəfənin, İslam ilahiyyatının, ezoterik elmlərin mürəkkəb məsələlərinin nəzərdən keçirilməsi.

“Kamil insan”, canlı dün¬ya¬nın predmet və hadisələrində Allahın “özünü açması” , ilahi ira¬dənin və müqəddəs yazının “sirli mənalarının” müxtəlif “mo¬dusları” konsepsiyalarının ifadə olunması.

İbn əl-Ərəbinin mistik birləşmə haqda sufi konsepsiyanı “kamil insan” (əl-insan əl-kamil) konsepsiyası ilə birləşdirməyə çalışması. Fənanın yeddi mərhələsi haqqında.

Sufizmdə “Vəhdət əl- vücud” təliminin irəli sürül¬məsi [13], [16], [15], [23], [11], [24], [35], [31].

**XII Mövzu: Əbu Həfs Ömər Sührəverdinin təsəvvüf fəlsəfəsi. Şəms Təbrizinin sufi baxışları. Mövlana Cəlaləddin Ruminin məhəbbət sufiliyi. ( 2 saat )**

**Şihabəddin Əbu Həfs Ömər İbn Məhəmməd Sührəverdi** təsəv¬vüfün böyük təmsilçisi kimi. «Biliklərin töhfəsi» («Əvariful Məarif») əsərində irəli sürülən problemlər. Sührəverdilik təriqətinin inkişafı və yayılmasında həlledici rolu.

Onun dünyagörüşü təsəvvüfün ən mühafizəkar qolu kimi. Təkva, zühd, zikr anlayışları. Təsəvvüfə aid elmləri iki


WPS Office ile Düzenle

hissəyə ayır¬ması. Sufilik yolunda iman, ilahi elm, zövq. Mürşidliyin sufiliyin ən zəruri tələblərindən biri he¬sab edilməsi.

Zahidlik təriqət yolunda əsas tələb¬lərdən biri kimi.. Sührəverdi xəlvət və səma barədə.

Sufilərin əxlaq qaydaları. Əbu Həfs Ömər Sührəverdi sufiz¬min əsas anlayışlarından olan hal və məqam, zahiri və batini fəna haqqında. Cəm və təfriqə, təcəlli və istiar, təcrid və təfrid,vəcd, tə¬vacüd, vücud, səhv və səkr, məhv və isbat, elmi yəqinlik, eynilə yəqinlik, Haqqa görə yəqinlik, qeybət və şühud, zövq, şurb, rayy, muhadara, mükaşəfə, müşahidə,təlvin və təmkin anlayış¬larının izahı.

**Şəms Təbrizinin** Azərbaycan fəlsəfi mədəniyyətinin inkişafında rolu. Şəms Təbrizinin Cəlaləddin Rumiyə təsiri. Onun irsində insan, onun dünyadakı statusu, mövcudluğunun mənası problemləri. İlahi mahiyyətin emanasiyası. Kamil insan yüksək əxlaq və mənəviyyatın daşıyıcısı kimi. İradə azadlığı məsələsinə baxış. Ş.Təbrizinin əsərlərində idrakın sufi yolu. İlahi mahiyyətin iraasional, intuitiv dərki.

**Cəlaləddin Ruminin** həyatı və təhsil illəri. Şəmsəddin Təbrizi ilə münasəbətləri. C.Ruminin «Divani Kəbir», «Məs¬nəvi», «Fihi və Ma-fih» ( “Onun içindəki içindədir” ) «Məktublar», «Məcalisi Səba» əsərləri.

Mövlanənin Yaradan və yaradılanların mövcudluğu ba¬rədə fikirləri. Şəriətin tələblərini icra et¬məyin zəruriliyi barə¬də. İlahi eşqin tərənnümü. Zühr və təkva mərtəbələrinə keç¬məyin məqsədinin vüsala çatmaq olması. Mövlana tərəfindən tövbə, təvəkkül və sükr etmə anlayış¬larının izahı.

Bütün mövcudatın Allaha birləşməsi, fanilik və İlahi eşq ideyaları. Məhəbbətin dinamik xarakter daşıması. Eşq Allahın sirlərini açmaq vasitəsi kimi. Ruminin qədim


WPS Office ile Düzenle

yunan fəlsəfəsinə və onun Şərq davamçılarına münasibəti. Mövlanın əsərlərində «ruh» və «can» anlayışları

«Məs¬nəvi»yə yazdığı başlanğıc - «Qamışın nəğməsi»ndən irəli gələn fikirlər. Zahiri və ruhani elmlər. Təsəvvüfün iki əsas mənbəyi. Bütün var¬lıq¬ların fani olaraq Allahın varlığında birləşməsi («vəhdət əl- vücud»). İlahi eşqin tərənnümü.

Cəlaləddin Ruminin elm, fəlsəfə və idraka münasibəti. Məkan və zaman, sonlu və sonsuz,səbəb və nəticə, ziddiyyətlər və əksliklər anlayışlarının təhlili [1], [6], [7], [8], [4], [27], [15], [29], [32].

**XIII Mövzu: Qasimi Ənvarın sufi dünyagörüşü. Seyid Yəhya Bakuvinin sufi baxışları. Yusif Muskuri Şirvaninin sufiliyə dair görüşləri. ( 2 saat )**

**Qasimi Ənvarın** yaradıcılığı və ictimai fəaliyyəti. Mütəfəkkirin irsində vəhdət əl-vücud təlimi. Varlığın dərəcələri. Eşq haqqında təlim. Eşqin Allah. Insan və aləmi vəhdətdə birləşdirməsi. Qasiminin idrak təlimi və ontoloji görüşləri. Dinlərə münasibəti. Etik baxışları. İnsanın mənəvi inkiçafı özünükamilləşdirmə prosesi kimi. Əxlaqi təmizlik problemləri.

**Seyid Yəhya Bakuvinin həyatı və yaradıcılığl.** Bakıda xəlvətiyyə təriqətinin ilk xanəgahının açılması. Vəhdət əl-vücud təliminin Bakuviyə təsiri. Varlığın yaradılışının mərhələləri. "Kəşf əl-qulub" əsərində əqlin üç pilləsi. Ürək, ruh və can arasında münasibətlər. Ekzoterik və ezoterik elmlər. Mütəfəkkirin dünyagörüşündə etik problemlər. Kamil insanın təsəvvüfə müvafiq olaraq formalaşması. Vəcd və səma mistiklərin qəlbinə təsir edən vasitə kimi. Bakuvinin estetik baxışları. Aləmin Allahın kamil sənətinin təzahürü olması fikri.

**Şeyx Molla Yusif Mus¬kurinin** həyat və fəaliyyəti. «Yara¬dılış ardıcıl¬lığı» («Silsilətül - uyun») əsəri.


WPS Office ile Düzenle

Y.Muskurinin varlıq haqqında təlimində tövhidə münasibət. «Fəna» və «bəqa» halları vasitəsilə mənən vəhdətə çatılması. Müqəddəs Ruh haqqındakı təsəvvürlər. Varlığın vəhdəti haqqında mülahizələri.

«Fəna» və «bəqa» pillələrinin mütəfəkkirin mistik ontolo¬giyasının əsasını təşkil etməsi. İki növ - ekzoterik və ezoterik biliyin və elmin möv¬cudluğunun vurğulanması. Eşqin yaradılışın ilk səbəbi olması fikri.

Orta əsr dövrünün ideologiyasının əsas anlamlarının Y.Mus¬kurinin irsin¬də rast gəldiyimiz ikitərəfli təqdimi. Y.Mus¬kurinin təliminin fəlsəfi və teosofik aspektlərinə xas olan dia¬lektika. Varlığın ziddiyyətlərin qarşılıqlı əlaqəsinin har¬monik vəhdəti kimi təqdim olunması.

Y.Muskurinin etik görüşləri. Sufiz¬min estetik görüşlərinin təqdimi [1], [19], [15], [20], [11].

**XIV Mövzu: Sufi qardaşlıqları (2 saat )**

**Əl-Qədriyyə** qardaşlığının görkəmli Həmbəli-sünni moizəçisi Əbd əl-Qədir Əl-Cilani tərəfindən yaradılması. Əl-Qədriyyə qardaşlığında iki müstəqil cinah. Bu qardaşlığın üzvlərinin mötədil təsəvvüf qaydalarına riayət etmələri. Təşkilatı əsasını muxtar özünüidarə edən xə¬nə¬gə və təkkələr təşkil et¬məsi. Təkkələrin rəhbərliyinin irsi olaraq atadan oğula keçməsi. Əl-Qədriyyə qardaşlığının uca səsli kollektiv zikr və səssiz fərdi zikr keçir¬mə¬¬si ilə seçilməsi. Zikrin keçirilməsi qaydaları. Bu qardaşlığın bayramları.

**Kubraviyyə** qardaşlığının XIII əsrdə Nəc¬məddin Əl-Kubra tərəfindən təsis olunması., Orta Asiya mistisizmi məktəbini təmsil etməsi. Bu qar¬daş¬lıqdan XV əsrdə iki şiə mövqeli «Zəhəbiyyə» və «Nurbax¬şiyyə» sufi qardaşlıqlarının ayrılması.Təşkilati mərkəziyyətin olmaması.

«Kubraviyyə» ana qardaşlığından yeddi qol və


WPS Office ile Düzenle

qardaşlığın törəməsi. Əl-Kubranın hazırladığı «kubraviyyənin» 10 prinsipi. Kubraviyyə qardaşlığında rəng-işıq simvolikası.

**Əs-Suhrəvərdiyyə** sufi qardaşlığının XII əsrin sonu – XIII ərin əvvəl¬lə¬rin¬də təsis olunması. Əbu Həfs Ömər əs-Suhrəvərdinin bu qardaşlığın təsisçisi sayılması. Bu qardaşlığın dağınıq təriqətlər birliyi şəklində mövcudluğu.

Əs-Suhrəvərdiyyə qardaşlığının Hindistanda fəaliyyəti. Öz fəaliyyətlərinin ilk çağlarında əs-Suhrəvərdiyyə sufilərinin Hin¬dis¬¬tanda mü¬səl¬man azlığının konseolidasiyasında əhəmiyyətli rol oy¬na¬maları. Zikrin formaları və icra üsulları. Qardaşlığa qəbul qaydaları.

**Mövləviyyə** qardaşlığının Cəlaləddin Rumi tərəfindən təsis olunması. Mövləvilik dünyagörüşünün əsasında qardaşlığın başçısında pey¬ğəmbərin gizli zəka nurunun Başqa sufi dini qardaşlıqlarından fərqli olaraq mövləvilikdə kollektiv zikr və mistik ibadət zamanı səmaya xüsusi əhəmiyyət verilməsi .Müridin dərvişliyə qəbul edilməsi mərasimi.

**Əş-Şəziliyyə** Şimali Afrikada ən böyük sufi qar¬daş¬lığı kimi. Əş-Şəziliyyə sufi qardaşlığının yaradıcısı Əbül-Həsən əş-Şəzili. Onun öz tərəfdarlarından Quranın, sünnə¬nin və şəriətin tə¬ləblərinə ciddi əməl etməyi, dünya nemətlərinə göz dik¬mə¬məyi, ha¬kimiyyət orqanları ilə əlaqə saxlamamağı tələb etməsi, əsas diq¬qə¬ti daxili özünü¬kamilləşdirməyə və imanın mahiyyətini dərk etməyə yö¬nəl¬t¬məyi məsləhət görməsi. Aktiv zahidliyin müdafiə olunması .«Hizb əl-bəhr» adlanan, ədəbi və bədii səviyyədə tərtib olunmuş «Allaha müraciət» duaları. Əş-Şəziliyyənin bəzi qollarının ictimai-siyasi həyatda fəal iştirak etmələri.

**Nəqşbəndiyyənin** XIX əsrin sonlarında for¬ma¬laşması. Orta Asiya sufisi, Buxaralı Bahaəddin


WPS Office ile Düzenle

Nəqş¬bəndin təşəbbüsü ilə «Yasəvilər» və «Gicduva¬nilər»in mistik təlimləri əsasında yaradılması və onun adı ilə «Nəqşbən¬diyyə» adlanması.

Hindistanda və Türkiyədə Nəqşbəndiyyə qardaşlığının fəaliyyəti. Nəqşbəndiyyə qardaşlığının təlim və praktikasının əsasında Bəhaəd-din Nəqş¬bəndinin baxışlarının durması. Əla əd-Din Əttarın qardaşlığın siyasi təsir qüvvəsinin güclənməsində rolu. İctimai-siyasi proseslərdə iştirakın təqdir edilməsi .Nəqşbəndiyyənin ayinlərdən səssiz zikrə əməl olunması. Ustadla şagird arasında mənəvi birlik-təvəccüh. Qardaşlığa qəbul olma qaydaları.

**Xəlvətiyyənin** – XIV əsrin sonunda Şimali-Qərbi İranda meydana gəlməsi. Zahir əd-Din Ömər əl-Xəlvətinin qardaşlığın banisi sayılması.XV əsrdə vahid təşkilati strukturun olması. İbn Ərəbinin "vəhdət əl-vücud" təliminin güclü təsirinin hiss olunması.

Xəlvətiyyə təliminin əsasında duran əməllər. Xəlvətə xüsusi fikir verilməsi. Qardaşlığa qəbul qaydaları.

Nimətullah Vali və onun yaratdıtı **Nimətullahiyyə** sufi qardaşlığı. Nimətullah Valinin həyatı. Sufi təlimində əl-Cüneydin və əl-Bistaminin sufi radikallığının birgə təzahür etməsi. Nimətullah Valinin fikrincə, mistik yolun son məq¬sə¬¬dinin «Allahda ərimək, Allahla əbədiyyətə çatmaq və Allahda səyahət et¬mək¬» olması.

Asketizmdə ifrat halların tənqidi. Sufilikdə təşkilati strukturun əleyhinə olması. Nimətullahi qardaşlığının tarixinin iki yerə bölünməsi 1. Yarandığı gündən XVIII əsrin ortalarına qədər olan dövr- Hindistan dövrü, 2. 1776-cı ildə Mə¬sum Əli Şah Dehqani və Şah Tahir Dehqaninin İranda Nimətullahi su¬fi qardaşlığını dir¬çəltmək üçün Hindistandan buraya köçməsindən indiyə qə¬dər olan dövr.

Qardaşlığa yeni üzvlərin qəbulu qaydalar və qeyd



WPS Office ile Düzenle

olunan bayramlar.

**Bayramiyyə** XIV-XV əsrin başlanğıcında yaradılan və mü¬hüm əhəmiyyətə malik olan təriqətlərdən biri kimi. Bayra¬miyyə təriqətinin əsasının Hacı Bayram Vəli tərəfindən qoyul¬ması.

Əməl olunan zikrin növləri. Tövhid anlayışına önəm verilməsi. Tövhidin mərtəbələri.

Bayramiyyənin əsas təməl prinsipləri: cəzb, məhəbbət və ilahi sirr. Özünü təsəvvüfə həsr edən bir insan üçün vacib olan başlıca şərtlər. Xəlvət və cəlvət. Bayramiliyin ən məşhur istiqaməti cəlvətiyyə. Cəlvətiyyənin əsasları [9], [15].

## “Sufizm fəlsəfəsi” kursu üzrə məşğələ mövzuları

### I Mövzu: Sufizm kursunun predmeti. Əsas sufi konsepsiyaları və institutları (2 saat)

1.Sufizmin meydana gəldiyi tarixi şərait
2.Sufizmin əsas ideyaları
3.Əsas sufi konsepsiyaları
4.Sufizmdə “hal” kateqoriyası
5.Sufizmdə məqamlar

**Ədəbiyyat:**

1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Кули-заде З.А. Закономерности развитии восточной философии XIII-XVIвв. ипроблема Запад-Восток. Баку, 1983.
4. Кули-заде З.А. Из истории азербайджанской философии VII-XVI вв. Баку, 1992.
5. Bünyadzadə K.Təsəvvüf fəlsəfəsinin ilk mənbələri.


WPS Office ile Düzenle

Sərrac Tusinin «Əl-lümə» əsəri. Bakı, 2003.
6. Seyfullayev Q. İslamda irfan və təsəvvüf. Bakı, 2006.
7. Хисматулин А.А. Суфизм. Санкт-Петербург,2008.

## II Mövzu: Sufi idrak nəzəriyyəsi. Mistik «hallara» çatma vasitələri (2 saat)

1.Sufizmdə fəna və bəqa təlimi
2.İdrakın sufi nəzəriyyəsi: kəşf
3.Mistik halların çağırılması yolları: xəlvət, zikr,səma

**Ədəbiyyat**


1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Кули-заде З.А. Закономерности развитии восточной философии XIII-XVIвв. ипроблема Запад-Восток. Баку, 1983.
4. Кули-заде З.А. Из истории азербайджанской фило¬со¬фии VII-XVI вв. Баку, 1992.
5. Bünyadzadə K.Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «Əl-lümə» əsəri. Bakı, 2003.
6. Seyfullayev Q. İslamda irfan və təsəvvüf. Bakı, 2006.
7. Хисматулин А.А. Суфизм. Санкт-Петербург,2008.


## III Mövzu: VII -IX əsrin əvvəlində asketik və mistik biliklər. Zahidliyin müxtəlif növləri (2 saat)

1.Həsən əl-Bəsri sufiliyin ilk nümayəndəsi kimi
2.Əbd əl-Vahid ibn Zeydin asketik fikirləri
3.Malik ibn Dinarın mistik fikirləri
4.İbrahim ibn Ədhəmin mistik fikirləri
5.İbn əl-Mübarəkin mistik fikirləri
6.Fudayl ibn İyadın mistik fikirləri



WPS Office ile Düzenle

**Ədəbiyyat**

1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Кули-заде З.А. Закономерности развитии восточной философии XIII-XVIвв. ипроблема Запад-Восток. Баку, 1983.
4. Кули-заде З.А. Из истории азербайджанской фило¬со¬фии VII-XVI вв. Баку, 1992.
5. Bünyadzadə K.Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «Əl-lümə» əsəri. Bakı, 2003.
6. Seyfullayev Q. İslamda irfan və təsəvvüf. Bakı, 2006.

## IV Mövzu: Məhəbbət mistisizmi. Mistik dilin və nəzəriyyənin təşəkkülü. Xilafətin qərbində (Suriya və Misirdə) asketizm və mistisizm (2 saat)

1.Rəbiyyə əl-Ədəviyyənin məhəbbət mistisizmi
2.Mistik dilin və nəzəriyyənin təşəkkülü: Şəkik əl-Bəlxi
3.. Əbu Süleyman əd-Dərani və onun əhatəsi
4. Zun Nun Əl-Misrinin sufi fikirləri

**Ədəbiyyat:**

1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005.

## V Mövzu: Bağdad sufi məktəbi (2 saat)

1. Mistik psixologiyanın meydana gəlməsi: əl-Haris əl-Mühasibi
2.Bağdad ənənələrinin yaranması : Məruf əl-Kərhi, Davud



WPS Office ile Düzenle

ət-Tai, Bişr əl-Hafi, Səri əs-Səqati
3. Ayıq mistisizm: Cuneyd əl-Bağdadi

**Ədəbiyyat:**

1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Süleyman Ateş. Cüneyd-i Bağdadi ve mektupları. İstanbul, 2017.

## VI Mövzu: Bağdad sufi məktəbi (2 saat)

1. "Sufi elminin dili". Əbu Səid əl-Xərraz
2. "Aşiqanə" mistisizmin inkişafi: Əbulhüseyn ən-Nuri, Sum¬nun əl-Muhibbi, Əbu Bəkr əş-Şibli
3. Bəsrə və Bağdad asketik-mistik məktəbləri arasında əlaqə¬lən¬dirici -Əbu Məhəmməd əl-Cureyri

**Ədəbiyyat:**

1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.

## VII Mövzu: Əl-Bistami və Əl-Həllacın "Sərxoş" mistisizmi (2 saat)

1. Əbu Yəzid əl-Bistaminin sufi baxışları
2. Əbu Hüseyn ibn Mənsur əl-Həllacın “sərxoş” mistisizmi

**Ədəbiyyat**:

1. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Mənsur Həllacın sirli dünyası. Bakı, 2006
4. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005.


WPS Office ile Düzenle

5. Kevser Yeşiltaş. En-el Hak Gizli Öğretisi, Sınır ötesi yayınları, 2011.

### VIII Mövzu: Bəsrə və Xorasanda asketik və mistik hərəkat (2 saat)

1.Bəsrə və Xorasanda asketik və mistik hərəkat: Səhl əl-Tüstəri, Məhəmməd ibn Səlim, Əhməd ibn Səlim

2.İslamın qızıl dövründə Bağdad sufizminin qələbəsinin səbəbləri. Əbu Bəkr əl-Vasitinin sufi təlimi

**Ədəbiyyat**:

1.Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2.Шиммель А. Мир исламского мистицизма. М., 1999.

### IX Mövzu: Sufi ənənəsinin sistemləşdirilməsi. Sərrac Tusi və onun «Əl-Lümə» əsəri (2 saat)

1. Sufi ənənələrinin sistemləşdirilməsi
2. Sərrac Tusi və onun «Əl-Lümə» əsəri

**Ədəbiyyat:**

1. K.Bünyadzadə. Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «əl-Lümə» əsəri. Bakı, 2003.
2. Кныш А.Д. Мусульманский мистицизм. Москва-Санкт-Петербург, 2004.

### X Mövzu: Sufi ənənəsinin sistemləşdirilməsi (2 saat)

1. Əbu Talib Əl-Məkkinin sufi ənənələrinin sistemləşdiril¬mə¬sində rolu
2. Xilafətin Şərq vilayətlərində sufilik: Əbu Bəkr Məhəmməd Əl-Kəlabazi
3. Xorasan ənənəsinin sistemləşdirilməsi: Əbu Əbd Ər-Rəhman Əs-Sulami



WPS Office ile Düzenle

4. Əbu Nueymə sufi baxışları. Əl-Quşeyrinin sufi təliminin inkişafında rolu
5.Əl-Hücvirinin“Gizlinin açıqlanması" ("Kəşf əl-məhcub") əsəri. Hənbəli çalarli sufilik: əl-Ənsari əl-Həravi

**Ədəbiyyat**:

1.Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
2.Шиммель А. Мир исламского мистицизма. М., 1999.
3. Kelabazi. Doğuş devrinde tasavvuf. Taarruf, ter. S.Uludab, İstanbul, Dergah yayınları, 1979.
4.Аль-Худжвири. Раскрытие скрытого за завесой. Старейший персидский трактат по суфизму. М., 2004.
5. Abdülkerim Kuşeyri. Tasavvuf ilmine dair Kuşeyri risalesi. (Hazırlayan: Süleyman Uludağ), İstanbul,2014.

**XI Mövzu: Əbu Hamid əl-Qəzalinin sufi baxışları ( 2 saat)**

1. Əbu Həmid əl-Qəzalinin həyatı
2. Əbu Həmid əl-Qəzalinin sufi təliminin inkişafında rolu

**Ədəbiyyat:**

1. Zərqanayeva İ.Z. Qəzalinin fəlsəfi-etik görüşləri/fəlsəfə doktoru alimlik dərəcəsi almaq üşün təqdim edilmiş dissertasiya/. Bakı, 2007.
2. Керимов Г.М. Аль-Газали и суфизм. Баку, 1969.
3. Кныш А.Д. Мусульманский мистицизм. Москва-Санкт-Петербург, 2004.
4. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005.

**XII Mövzu: Böyük sufi şair və filosofları. İbn Əl-Ərəbinin “Vəhdət əl-vücud” təlimi ( 2 saat)**

1. Fərid Əd-Din Məhəmməd Əttar əsərlərində sufiliyə


WPS Office ile Düzenle

dair fikirlər
2. Nurəddin Əbd ər-Rəhman Cami əsərlərində sufi ideyaları
3. İbn əl-Ərəbinin “Vəhdət əl-vücud” təlimi

**Ədəbiyyat**


1. Бертельс Е. Суфизм и суфийская литература. М., 1965
2. Кныш А.Д. Мировоззрение Ибн Араби. М., 1977
3. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
4. Шиммель А. Мир исламского мистицизма. М., 1999.
5. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005.
6. A.E.Affifi. Muhyiddin İbnul-Arabinin tasavvuf felsefesi. İstanbul, 1999
7. İbn Arabi.Marifet kitabı.İstanbul,2009.
8. İbnül-Arabi. Fususul-hikem. İstanbul, 2013.


## XIII Mövzu: Əbu Həfs Ömər Sührəverdinin təsəvvüf fəlsəfəsi. Şəms Təbrizinin sufi baxışları. Mövlana Cəlaləddin Ruminin sufin təlimi (2 saat)

1. Əbu Həfs Ömər Sührəverdinin təsəvvüf fəlsəfəsi
2. Şəms Təbrizinin sufi baxışları.
3. Mövlana Cəlaləddin Ruminin sufin təlimi.

**Ədəbiyyat**


1. Azərbaycan fəlsəfə tarixi. Bakı,2014
2. Y.Rüstəmov. Əbu Şəfs Ömər Sührəverdinin təsəvvüf fəlsəfəsi. Bakı, 2005.
3. Y.Rüstəmov. Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı, 2002.
4. İbrahimova İ.H. Mövlana Cəlaləddin Ruminin “Məsnəvi-




WPS Office ile Düzenle

ye mənəvi” əsəri islam təsəvvüfünün əsas qaynaqlarından biri kimi.Bakı, 2005.
5. Z.Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 2006.
6. Mevlana Celaleddin Rumi. Fihi ma fih, terc. A.A.Konuk, İstanbul, İz yayıncılık, 1994.
7. А.Д.Кныш. Мусульманский мистицизм. Москва-Санкт-Петербург, 2004.
8. Şams-i Tebrizi.Aşk-i A-la. Konya, 2011.
9. Mevlana Celaleddin. Mektuplar. İstanbul,1999.

## XIV Mövzu: Qasimi Ənvarın sufi dünyagörüşü. Seyid Yəhya Bakuvinin sufi baxışları. Yusif Muskuri Şirvaninin sufilik görüşləri (2 saat)

1.Qasimi Ənvarın sufi dünyagörüşü
2. Seyid Yəhya Bakuvinin sufi baxışları.
3.Yusif Muskuri Şirvaninin sufilik görüşləri

**Ədəbiyyat**

1. Azərbaycan fəlsəfə tarixi. Bakı,2014
2. Кули-заде З.А. Мировоззрение Касими Анвара. Баку: Элм, 1976.
3. А.Д.Кныш. Мусульманский мистицизм. Москва -Санкт-Петербург, 2004.
4. Рзаклузаде С.Д. Мировоззрение Баба Кухи Бакуви. Баку: Элм, 1978.
5. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005.

## XV Mövzu: Sufi qardaşlıqları (2 saat)

1.Əl-Qədriyyə qardaşlığı
2.Kubraviyyə qardaşlığı
3.Əş-Şəziliyyə qardaşlığı
4.Əs-Sührəverdiyyə qardaşlığı
5.Mövləviyyə qardaşlığı
6.Nəqşbəndiyyə qardaşlığı



WPS Office ile Düzenle

7.Xəlvətiyyə qardaşlığı
8.Bayramiyyə qardaşlığı

**Ədəbiyyat**


1. H.İmanov, A.Əhədov. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı, 2008.
2. Кныш А.Д. Мусульманский мистицизм. Москва-Санкт-Петербург, 2004.


## Ədəbiyyat siyahısı:
## Azərbaycan dilində


1. Azərbaycan fəlsəfə tarixi. I və II cildlər. Bakı, 2014.
2. Bünyadzadə K.Y. Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «əl-Lümə» əsəri. Bakı, 2003.
3. Seyfullayev Q. İslamda irfan və təsəvvüf. Bakı, 2006.
4. Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: İrşad, 1994.
5. Məmmədov Z.C. Eynəlqüzat Miyanəci. Bakı: Elm, 1992.
6. Rüstəmov Y.İ. Əbu Həfs Ömər Sührəvərdinin təsəvvüf fəlsəfəsi. Bakı: Təknur, 2005.
7. Rüstəmov Y.İ. Mövlanə Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2002.
8. İbrahimova İ.H. Mövlana Cəlaləddin Ruminin "Məsnəvi-ye mənəvi" əsəri islam təsəvvüfünün əsas qaynaqlarından biri kimi.Bakı, 2005.
9. İmanov H, Əhədov A. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı, 2008.
10. Mənsur Həllacın sirli dünyası. Bakı, 2006




WPS Office ile Düzenle

11. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı,2005
12. Zərqanayeva İ.Z. Qəzalinin fəlsəfi-etik görüşləri/fəlsəfə doktoru alimlik dərəcəsi almaq üşün təqdim edilmiş dissertasiya/. Bakı, 2007

**Rus dilində**

13. Бертельс Е.Э. Суфизм и суфийская литература. М.: Наука, 1965.
14. Керимов Г.М. Аль-Газали и суфизм. Баку: Элм, 1969.
15. Кныш А.Д. Мусульманский мистицизм. Москва – Санкт-Петербург, 2004.
16. Кныш А.Д. Мировоззрение Ибн Араби. М., 1977
17. Кули-заде З.А. Закономерности развития восточной философии XIII-XVI вв. и проблема Запад-Восток. Баку: Элм, 1983.
18. Кули-заде З.А. Из истории азербайджанской философии XII-XVI вв., Баку: Аз. Гос. Из-во, 1992.
19. Кули-заде З.А. Мировоззрение Касими Анвара. Баку: Элм, 1976.
20. Рзаклузаде С.Д. Мировоззрение Баба Кухи Бакуви. Баку: Элм, 1978.
21. Хисматулин А.А. Суфизм. Санкт-Петербург,2008.
22. Аль-Худжвири. Раскрытие скрытого за завесой. Старейший персидский трактат по суфизму. М., 2004.
23. Шиммел А. Мир исламского мистицизма, пер. с англ. Н.И.Пригариной и А.С.Раппорт. М., Алетейа, Энигма, 1999.

**Türk dilində**

24. A.E.Affifi.Muhyiddin İbnul-Arabinin tasavvuf felsefesi. İstanbul, 1999
25. Ateş S. İslam tasavvufu. İstanbul, Yeni ufuklar



WPS Office ile Düzenle

neşriyat, 1992.
26. Kelabazi. Doğuş devrinde tasavvuf. Taarruf, ter. S.Uludab, İstanbul, Dergah yayınları, 1979.
27. Mevlana Celaleddin Rumi. Fihi ma fih, terc. A.A.Konuk, İstanbul, İz yayıncılık, 1994.
28. Kevser Yeşiltaş. En-el Hak Gizli Öğretisi, Sınır ötesi yayınları,2011
29. Şams-i Tebrizi.Aşk-i A-la. Konya, 2011.
30. Abdülkerim Kuşeyri. Tasavvuf ilmine dair Kuşeyri risalesi. (Hazırlayan: Süleyman Uludağ), İstanbul,2014.
31. İbnül-Arabi. Fususul-hikem. İstanbul, 2013.
32. Mevlana Celaleddin. Mektuplar. İstanbul,1999.
33. İbn Arabi. Fena risalesi.İstanbul,2013.
34. Süleyman Ateş. Cüneyd-i Bağdadi ve mektupları. İstanbul, 2017.
35. İbn Arabi.Marifet kitabı.İstanbul, 2009.


WPS Office ile Düzenle